AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

SOSİAL, İQTİSADİ İNKİŞAF

6

YANVAR-İYUN

Məlumatlardan istifadə edərkən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə istinad etmək lazımdır.

Xüsusi işarələr:

"-" hadisə baş verməmişdir

"..." məlumat mövcud deyil

"0,0" məlumat çox kiçik rəqəmlə xarakterizə olunur

"x" müqayisə mümkün deyil

İzahlar:

-cari ilə dair məlumatlar növbəti dəqiqləşdirilmiş statistik hesabatlar əsasında sonrakı nəşrlərdə korrektə edilə bilər

-bəzi hallarda yekunla toplananların cəmi arasındakı fərq rəqəmlərin yuvarlaqlaşdırılması ilə izah olunur

-bu nəşrdə əvvəlki dövrlərə dair məlumatlarla əvvəlki nəşrlərdə həmin dövrlərə aid məlumatlar arasındakı bəzi fərqlər beynəlxalq praktikaya uyğun olaraq yekun statistik hesabatlar əsasında ilkin məlumatlarda aparılmış dəqiqləşdirmələrlə izah olunur

M Ü N D Ə R İ C A T

I	**MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR**	**5**
	2021-ci ilin yanvar-iyun aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri	**5**
II	**REAL SEKTOR**	
	Ümumi daxili məhsul	13
	Sənaye	16
	Tikinti	38
	Kənd təsərrüfatı	45
	Nəqliyyat	51
	İnformasiya və rabitə	54
	İstehlak bazarı	55
	Əmtəə bazarı	56
	İctimai iaşə xidmətləri	61
	Əhaliyə göstərilən ödənişli xidmətlər	62
	Qiymət indeksləri	65
	Kredit qoyuluşları	78
	Məşğulluq və işsizlik	80
III	**DÖVLƏT SEKTORU**	
	Dövlət büdcəsi	83
IV	**XARİCİ SEKTOR**	
	Xarici ticarət	87
VI	**İNSTİTUSİONAL DƏYİŞİKLİKLƏR**	
	Təsərrüfat subyektlərinin xarakteristikası	93
VII	**SOSİAL SEKTOR**	
	Əhalinin gəlirləri	114
	Əməkhaqqı	115
	Əhalinin əmanətləri və manatın məzənnəsi	116
	Demoqrafik vəziyyət	118
	Əlavələr	**121**
	Metodoloji izahatlar	**139**

Azərbaycan Respublikasının
Dövlət Statistika Komitəsi
Məruzə № 6
15 iyul 2021-ci il

2021-ci İLİN YANVAR-İYUN AYLARINDA ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

2021-ci ilin yanvar-iyun aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 39,9 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz çox **ümumi daxili məhsul** istehsal edilmişdir. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 4,7 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 5,1 faiz artmışdır.

Əlavə dəyərin 39,9 faizi sənaye, 10,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,1 faizi tikinti, 1,8 faizi informasiya və rabitə, 1,0 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində, 18,9 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 9,3 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 3987,6 manata bərabər olmuşdur.

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2021-ci ilin yanvar-iyun aylarında 23,1 milyard manatlıq və ya 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,3 faiz az sənaye məhsulu istehsal edilmişdir. Bu azalma neft-qaz sektorunda məhsul istehsalının 3,2 faiz azalması hesabına baş vermiş, sənayenin qeyri neft-qaz sektorunda isə məhsul istehsalı 16,6 faiz artmışdır.

Sənaye məhsulunun 62,6 faizi mədənçıxarma sektorunda, 31,3 faizi emal sektorunda, 5,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9 faizi

isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 3,7 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 8,8 faiz artmışdır.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 3,1 dəfə, kompüter, elektron və optik məhsulların istehsalı 2,5 dəfə, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 2,2 dəfə, tütün məmulatlarının istehsalı 80,8 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 78,2 faiz, elektrik avadanlıqlarının istehsalı 60,6 faiz, maşın və avadanlıqların istehsalı 48,3 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 48,1 faiz, tikinti materiallarının istehsalı 40,2 faiz, kağız və karton istehsalı 34,2 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 29,7 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 24,0 faiz, geyim istehsalı 10,7 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 9,4 faiz, qida məhsullarının istehsalı 8,1 faiz, neft məhsullarının istehsalı 5,5 faiz, hazır metal məmulatlarının istehsalı 3,4 faiz artmış, içkilərin istehsalı 5,0 faiz, kimya sənayesi məhsullarının istehsalı 5,3 faiz, mebel istehsalı 24,6 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 47,1 faiz, poliqrafiya məhsullarının istehsalı 52,9 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 69,1 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 1,2 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 11,2 faiz artmışdır.

İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 iyul 2021-ci il vəziyyətinə 671,0 milyon manatlıq hazır məhsul olmuşdur.

Kənd təsərrüfatında yaz tarla işləri başa çatmışdır. 2021-ci il iyul ayının 1-nə kimi 393,1 min hektar sahədə (2020-ci ilin 01 iyul vəziyyətinə 393,8 min hektar) yazlıq bitkilər, o cümlədən 61,1 min hektar sahədə dənlilər və dənli paxlalı bitkilər (ondan

32,3 min hektarı dən üçün qarğıdalı), 56,1 min hektar sahədə kartof, 68,2 min hektar sahədə tərəvəz, 20,2 min hektar sahədə bostan bitkiləri, 100,5 min hektar sahədə pambıq, 11,1 min hektar sahədə dən üçün günəbaxan, 5,1 min hektar sahədə şəkər çuğunduru, 3,1 min hektar sahədə tütün, 65,0 min hektar sahədə çoxillik otlar, 1,1 min hektar sahədə birillik otlar və 1,6 min hektar sahədə sair bitkilər əkilmişdir.

2021-ci il iyul ayının 1-nə kimi qarğıdalı da daxil olmaqla tarlalardan 2627,7 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 10,8 faiz çox dənlilər və dənli paxlalı bitkilər, 391,2 min ton (6,2 faiz çox) kartof, 776,7 min ton (8,3 faiz çox) tərəvəz, 100,1 min ton (30,7 faiz çox) bostan məhsulları, 133,9 min ton (1,5 faiz çox) meyvə və giləmeyvə, 1,5 min ton (10,3 faiz çox) tütün, 522,4 ton (23,7 faiz çox) yaşıl çay yarpağı yığılmışdır.

2021-ci il iyulun 1-i vəziyyətinə ölkə üzrə 2663,7 min baş iribuynuzlu mal-qara, o cümlədən 1287,6 min baş inək və camış, 8267,3 min baş qoyun və keçi mövcud olmuşdur.

2020-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyun aylarında diri çəkidə ət istehsalı 3,1 faiz artaraq 268,5 min ton, süd istehsalı 1,8 faiz artaraq 1075,3 min ton, yun istehsalı 0,1 faiz artaraq 14,6 min ton, barama istehsalı 10,2 faiz artaraq 491,3 ton, yumurta istehsalı isə 4,0 faiz azalaraq 951,3 milyon ədəd olmuşdur.

2020-ci ilin yanvar-iyun ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 5,6 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 2,4 faiz, bitkiçilik məhsulları istehsalı 8,9 faiz artmışdır.

2021-ci ilin yanvar-iyun aylarında **əsas kapitala** 5919,4 milyon manat məbləğində, yaxud 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 7,6 faiz az vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 2,8 faiz, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 11,3 faiz azalmışdır. İstifadə olunmuş vəsaitin 4068,9 milyon manatı və ya 68,7 faizi məhsul istehsalı sahələrinə, 1381,5 milyon manatı (23,4 faizi) xidmət sahələrinə, 469,0 milyon manatı (7,9 faizi) isə yaşayış evlərinin

tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 3610,3 milyon manatını və ya 61,0 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 3938,0 milyon manatı və ya 66,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2021-ci ilin yanvar-iyun aylarında 92,2 milyon ton **yük** və 555,1 milyon **sərnişin** daşınmışdır. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 4,2 faiz, sərnişin daşınması isə 19,5 faiz azalmışdır. Yüklərin 56,7 faizi avtomobil, 32,3 faizi boru kəməri, 7,8 faizi dəmir yolu, 3,0 faizi dəniz, 0,2 faizi isə hava nəqliyyatı ilə daşınmışdır. Sərnişinlərin 97,7 faizi avtomobil, 2,0 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır.

İnformasiya və rabitə müəssisələri tərəfindən göstərilmiş 1100,2 milyon manatlıq xidmətlərin 74,5 faizi əhali sektoruna aid olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2021-ci ilin yanvar-iyun aylarında göstərilmiş informasiya və rabitə xidmətlərinin həcmi 5,5 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 80,7 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

2021-ci ilin yanvar-iyun aylarında **pərakəndə ticarət** şəbəkəsindən əhaliyə 19383,1 milyon manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 3535,1 milyon manatlıq **ödənişli xidmət** göstərilmişdir. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 1,7 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 2,3 faiz artmış, ticarət şəbəkəsində 10436,8 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 8946,3 milyon manatlıq qeyri-ərzaq məhsulları satılmışdır.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2021-ci ilin yanvar-may aylarında ölkənin **xarici ticarət** dövriyyəsi 11957,6 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 7564,7 milyon dollarını və ya 63,3 faizini ölkədən

ixrac olunmuş məhsulların, 4392,9 milyon dollarını (36,7 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 3171,8 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2020-ci ilin yanvar-may ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 21,3 faiz artmış, real ifadədə isə 10,2 faiz, o cümlədən idxal 13,4 faiz, ixrac 7,8 faiz azalmışdır.

2021-ci ilin yanvar-may aylarında qeyri neft-qaz məhsullarının ixracı 2020-ci ilin yanvar-may aylarına nisbətən faktiki qiymətlərlə 25,8 faiz, real ifadədə 11,9 faiz artaraq 907,6 milyon dollar təşkil etmişdir.

2021-ci ilin yanvar-iyun aylarında **istehlak qiymətləri indeksi** 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 104,3 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 104,9 faiz, qeyri-ərzaq malları üzrə 103,9 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 103,5 faiz təşkil etmişdir.

2021-ci ilin yanvar-may aylarında muzdlu işçilərin **orta aylıq nominal əməkhaqqı** 2020-ci ilin müvafiq dövrünə nisbətən 0,7 faiz azalaraq 724,0 manat təşkil etmişdir.

2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2021-ci ilin yanvar-iyun aylarında **əhalinin gəlirləri** nominal ifadədə 0,4 faiz artaraq 27,6 milyard manat təşkil etmişdir.

Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən 2021-ci ilin yanvar-iyun aylarında **dövlət büdcəsinə** 11755,0 milyon manat vəsait daxil olmuş, büdcədən 11590,5 milyon manat vəsait xərclənmiş, büdcənin icrasında 164,5 milyon manatlıq profisit yaranmışdır.

Mərkəzi Bankın məlumatlarına görə, 2021-ci il iyun ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının **kredit portfeli** milli valyuta ekvivalentində 15067,1 milyon manat təşkil etmiş, onun 12461,4 milyon manatı uzunmüddətli kreditlər olmuşdur. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 6,0 faizini təşkil etmişdir.

Əhalinin banklardakı **əmanətlərinin** milli valyuta ekvivalentində məbləği 2021-ci il iyun ayının 1-nə 8635,2 milyon manat təşkil etmişdir.

2021-ci ilin yanvar-iyun aylarında milli valyutanın 1 ABŞ dollarına nisbətdə **orta məzənnəsi** 1,70 manata, 1 Avroya –2,05 manata, 100 Türk lirəsinə – 21,74 manata, 100 Rusiya rubluna – 2,29 manata bərabər olmuşdur.

2021-ci ilin yanvar-may aylarında **əhalinin sayı** 16139 nəfər və ya 0,2 faiz artaraq 2021-ci il iyun ayının 1-i vəziyyətinə 10135272 nəfərə çatmışdır.

Cədvəl 1

MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

Göstəricinin adı	2021-ci ilin yanvar-iyun ayları, faktiki	2021-ci ilin yanvar-iyun ayları 2020-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə	Məlumat üçün 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə
A	1	2	3
Ümumi daxili məhsul, milyon manat	**39 915,0**	**102,1**	**97,3**
o cümlədən qeyri neft-qaz ÜDM	25 637,0	105,1	97,5
Əhalinin hər nəfərinə düşən ÜDM, manat	**3 987,6**	**101,6**	**96,6**
Sənaye məhsulu, milyon manat	**23 095,3**	**99,7**	**98,5**
o cümlədən qeyri neft-qaz sənayesi	6 876,1	116,6	111,2
Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat	**5 919,4**	**92,4**	**97,3**
o cümlədən qeyri neft-qaz sektoruna	3 178,2	88,7	84,5
ondan qeyri neft-qaz sənayesinə	479,0	70,9	74,3
Kənd təsərrüfatı məhsulu, milyon manat	**4 370,4**	**105,6**	**102,2**
o cümlədən: bitkiçilik	2 216,7	108,9	101,1
heyvandarlıq	2 153,7	102,4	103,2
Nəqliyyat sektorunda yük daşınması, milyon ton	**92,2**	**95,8**	**85,9**
Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin	**555,1**	**80,5**	**71,3**
İnformasiya və rabitə xidmətləri, milyon manat	**1 100,2**	**105,5**	**104,4**
Pərakəndə ticarət dövriyyəsi, milyon manat	**19 383,1**	**101,7**	**98,1**
Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat	**3 535,1**	**102,3**	**80,8**
Dövlət büdcəsinin gəlirləri, milyon manat	**11 755,0**	**97,8**	**115,5**
Dövlət büdcəsinin xərcləri, milyon manat	**11 590,5**	**98,8**	**107,1**
Dövlət büdcəsinin profisiti, milyon manat	**164,5**	**x**	**x**
Əhalinin nominal gəlirləri, milyon manat	**27 580,7**	**100,4**	**100,6**
Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat	**2 755,4**	**99,9**	**99,8**

…ardı

A	1	2	3
Əhalinin banklardakı əmanətləri, 2021-ci il 01 iyun vəziyyətinə, milyon manat	**8 635,2**	**112,7**	**88,8**
Kredit qoyuluşları, 2021-ci il 01 iyun vəziyyətinə, milyon manat	**15 067,1**	**102,0**	**111,9**
o cümlədən vaxtı keçmiş kreditlər	906,9	83,6	72,6
Orta aylıq nominal əməkhaqqı, manat	**724,0***	**99,3****	**124,9*****
İstehlak qiymətlərinin indeksi	**x**	**104,3**	**103,0**
Əhalinin sayı, 2021-ci il 01 iyun vəziyyətinə, min nəfər	**10 135,3**	**100,5**	**100,8**
Xarici ticarət dövriyyəsi[1], mlyn. ABŞ $			
faktiki qiymətlərlə	**11 957,6***	**121,3****	**70,2*****
müqayisəli qiymətlərlə	**x**	**89,8****	**81,3*****
o cümlədən: **ixrac**			
faktiki qiymətlərlə	7 564,7*	132,8**	69,4***
müqayisəli qiymətlərlə	x	92,2**	98,4***
ondan **qeyri-neft ixracı**			
faktiki qiymətlərlə	907,6*	125,8**	91,1***
müqayisəli qiymətlərlə	x	111,9**	85,5***
idxal			
faktiki qiymətlərlə	4 392,9*	105,5**	71,4***
müqayisəli qiymətlərlə	x	86,6**	57,3***

Qeyd:

* 2021-ci ilin yanvar-may ayları

** 2021-ci ilin yanvar-may ayları 2020-ci ilin yanvar-may aylarına nisbətən.

*** 2020-ci ilin yanvar-may ayları 2019-cu ilin yanvar-may aylarına nisbətən.

[1] Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

Ümumi Daxili Məhsul istehsalı

2021-ci ilin yanvar-iyun aylarında ölkədə 39 915,0 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,1 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 4,7 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 5,1 faiz artmışdır.

ÜDM istehsalının 39,9 faizi sənaye, 10,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,1 faizi tikinti, 1,8 faizi informasiya və rabitə, 1,0 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 18,9 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,3 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 3987,6 manata bərabər olmuşdur.

Cədvəl 2

Ümumi daxili məhsul istehsalı

milyon manat

	Yanvar-iyun		2021-ci ilin yanvar-iyun ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
	2021	**2020*)**	
Ümumi Daxili Məhsul	**39915,0**	**34378,7**	**102,1**
o cümlədən: Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	2551,9	2410,0	105,7
Sənaye	15931,0	11956,0	98,3
o cümlədən: mədənçıxarma sənayesi	12891,9	9423,4	94,1
emal sənayesi	2519,2	2066,1	116,4
elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	431,6	399,1	101,2
su təchizatı, tullantıların təmizlənməsi və emalı	88,3	67,4	111,2
Tikinti	2042,1	2034,3	98,9
Ticarət və nəqliyyat vasitələrinin təmiri	4099,4	3792,0	102,0
Nəqliyyat və anbar təsərrüfatı	2896,5	2452,0	109,9
Turistlərin yerləşdirilməsi və ictimai iaşə	397,1	418,9	93,1
İnformasiya və rabitə	728,4	690,7	105,5
Digər sahələr	7544,4	7076,6	104,2
Məhsula və idxala xalis vergilər	**3724,2**	**3548,2**	**104,9**

*) 2020-ci ilin yanvar-iyun aylarının göstəriciləri yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

Cədvəl 3

Neft-qaz və qeyri neft-qaz sektorlarında ümumi daxili məhsul istehsalı

milyon manat

	Yanvar-iyun		2021-ci ilin yanvar-iyun ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
	2021	2020*)	
Ümumi Daxili Məhsul	**39915,0**	**34378,7**	**102,1**
o cümlədən: neft-qaz sektoru	14278,0	10582,8	95,3
qeyri neft-qaz sektoru	25637,0	23795,9	105,1

*) 2020-ci ilin yanvar-iyun aylarının göstəriciləri yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

Qrafik 1



Sənaye

2021-ci ilin yanvar-iyun aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 0,3 faiz azalaraq 23,1 milyard manat təşkil etmişdir. Bu azalma neft-qaz sektorunda məhsul istehsalının 3,2 faiz azalması hesabına baş vermiş, sənayenin qeyri neft-qaz sektorunda isə məhsul istehsalı 16,6 faiz artmışdır. Sənaye məhsulunun 62,6 faizi mədənçıxarma, 31,3 faizi emal, 5,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Sənayedə qeyri-dövlət sektorunun payı 81,9 faiz olmuşdur. Ümumi istehsalın 90,7 faizi sənaye məhsullarının istehsalı, 9,3 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Cədvəl 4

Sənaye istehsalı indeksləri,
sabit qiymətlərlə, faizlə

	Əvvəlki aya nisbətən	Əvvəlki ilin müvafiq dövrünə nisbətən
2020-ci il		
Yanvar	98,3	102,1
Fevral	91,0	100,9
Mart	103,0	100,8
Aprel	92,7	103,0
May	110,0	100,4
İyun	92,7	98,5
İyul	100,2	97,3
Avqust	99,7	96,9
Sentyabr	81,0	95,5
Oktyabr	111,0	95,5
Noyabr	107,0	95,3
Dekabr	110,0	95,0
2021-ci il		
Yanvar	103,1	96,6
Fevral	90,5	96,0

…ardı

	Əvvəlki aya nisbətən	Əvvəlki ilin müvafiq dövrünə nisbətən
Mart	103,4	96,4
Aprel	92,5	96,2
May	111,8	97,8
İyun	99,2	99,7

2021-ci ilin yanvar-iyun aylarında 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə istehsal vasitələrinin istehsalı 54,8 faiz, aralıq istehlak məhsullarının istehsalı 20,7 faiz, qısamüddətli istifadədə olan malların istehsalı 10,3 faiz artmış, enerji məhsullarının istehsalı 0,5 faiz, uzunmüddətli istifadədə olan istehlak mallarının istehsalı isə 22,4 faiz azalmışdır.

Cədvəl 5

	2021-ci ilin iyun ayı 2020-ci ilin iyun ayına nisbətən, faizlə	2021-ci ilin yanvar-iyun ayları 2020-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə
Sənaye – cəmi	**110,9**	**99,7**
Aralıq istehlak məhsullarının istehsalı	160,5	120,7
Uzunmüddətli istifadədə olan istehlak mallarının istehsalı	101,8	77,6
Qısamüddətli istifadədə olan malların istehsalı	118,5	110,3
İstehsal vasitələrinin istehsalı	119,2	154,8
Enerji məhsullarının istehsalı	110,3	99,5

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 iyul 2021-ci il vəziyyətinə 671,0 milyon manatlıq hazır məhsul olmuşdur.

Ehtiyatların 0,5 faizi Naxçıvan Muxtar Respublikasının, 52,9 faizi Bakı, 13,3 faizi Sumqayıt, 7,8 faizi Gəncə, 4,6 faizi Şirvan şəhərlərinin, qalan hissəsi isə digər şəhər və rayonların sənaye müəssisələrinin anbarlarında qalmışdır. Sənaye

müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 69,3 milyon manat məbləğində digər məhsullar da mövcud olmuşdur.

Mədənçıxarma sənayesi

Mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 14,5 milyard manat olmaqla, əvvəlki ilin yanvar-iyun aylarına nisbətən 3,7 faiz azalmışdır.

Sahənin əsas məhsulu olan əmtəəlik xam neft hasilatı 17,1 milyon ton, əmtəəlik təbii qaz hasilatı isə 15,0 milyard kub metr təşkil etmişdir. Əmtəəlik neft hasilatı 3,7 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 8,8 faiz artmışdır.

Cədvəl 6

Mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsullar

Məhsul növləri	2021-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	01.07.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Xam neft və təbii qaz hasilatı			
Xam neft (qaz kondensatı daxil olmaqla), min ton	17176,8	96,0	298,8
ondan əmtəəlik	17144,8	96,3	298,8
Təbii qaz, milyon kub metr	20355,3	105,1	-
ondan əmtəəlik	14996,7	108,8	-
Metal filizlərinin hasilatı			
Mis filizləri və konsentratları, ton	1338,3	106,8	376,9
Qiymətli metal filizləri və konsentratları, kq	4186,8	108,4	295,9
o cümlədən : qızıl	1748,2	102,1	117,4
gümüş	2438,6	113,4	178,5
Mədənçıxarma sənayesinin digər məhsulları			
Tikinti qumu, min ton	552,8	153,8	309,2
İnşaat üçün əhəng daşı, min ton	186,4	98,0	-

…ardı

Məhsul növləri	2021-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	01.07.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Çınqıl, qırmadaş, xırda çay daşı, min ton	1798,3	2,8 d.	13,9
Duz, min ton	37,1	102,9	0,1
Bentonit, min ton	131,8	154,8	200,0
ondan əmtəəlik	131,1	162,2	200,0
Gips və anhidrit, min ton	120,1	90,8	39,0

Qrafik 2

Neft və qaz hasilatının aylar üzrə dinamikası



Emal sənayesi

Emal sənayesində yanvar-iyun aylarında 7232,9 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Cədvəl 7

Emal sənayesində istehsalın dinamikası

	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	
	Emal sənayesi-cəmi	ondan qeyri-neft emal sənayesi
2020-ci il		
Yanvar	120,9	120,7
Yanvar-fevral	119,5	124,1
Yanvar-mart	120,5	126,5
Yanvar-aprel	114,3	119,3
Yanvar-may	110,9	115,8
Yanvar-iyun	108,2	112,2
Yanvar-iyul	109,4	114,9
Yanvar-avqust	111,5	116,6
Yanvar-sentyabr	106,5	113,0
Yanvar-oktyabr	108,4	114,2
Yanvar-noyabr	108,8	114,6
Yanvar-dekabr	110,4	118,0
2021-ci il		
Yanvar	105,3	118,0
Yanvar-fevral	106,4	118,3
Yanvar-mart	107,1	116,9
Yanvar-aprel	114,9	122,8
Yanvar-may	115,6	121,8
Yanvar-iyun	116,4	121,7

Qrafik 3

Emal sənayesi üzrə istehsal indeksinin dinamikası

(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



Cədvəl 8

Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı

Fəaliyyət növlərinin adı	2021-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir, milyon manat	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
Emal sənayesi –cəmi	**7232,9**	**116,4**
o cümlədən: qida məhsullarının istehsalı	2186,3	108,1
içki istehsalı	238,1	95,0
tütün məmulatlarının istehsalı	281,2	180,8
toxuculuq sənayesi	179,8	148,1
geyim istehsalı	59,7	110,7
dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı	11,3	2,2 d.
mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı	31,8	124,0
kağız və karton istehsalı	60,3	134,2
poliqrafiya məhsullarının istehsalı	32,9	47,1
neft məhsullarının istehsalı	1977,0	105,5
kimya sənayesi	621,3	94,7
əczaçılıq məhsullarının istehsalı	4,2	3,1 d.
rezin və plastik kütlə məmulatlarının istehsalı	171,7	129,7
tikinti materiallarının istehsalı	374,4	140,2
metallurgiya sənayesi	280,7	109,4
hazır metal məmulatlarının istehsalı	142,4	103,4
kompüter, elektron və optik məhsulların istehsalı	28,3	2,5 d.
elektrik avadanlıqlarının istehsalı	73,5	160,6
maşın və avadanlıqların istehsalı	100,8	148,3
avtomobil, qoşqu və yarımqoşquların istehsalı	31,3	52,9
sair nəqliyyat vasitələrinin istehsalı	2,1	30,9
mebellərin istehsalı	59,8	75,4
zərgərlik məmulatları, musiqi alətləri, idman mallarının və tibb avadanlıqlarının istehsalı	39,4	90,7
maşın və avadanlıqların quraşdırılması və təmiri	244,6	178,2

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə tütün məmulatlarının istehsalında 80,8 faiz, qida məhsullarının istehsalında 8,1 faiz artım, içki istehsalında isə 5,0 faiz azalma müşahidə olunmuşdur.

Bu sahələrin əsas məhsullarından qənd və şəkər tozunun istehsalı 79,3 faiz, duru bitki yağlarının istehsalı 4,6 faiz, kərə yağının istehsalı 5,4 faiz, kolbasa məmulatlarının istehsalı 8,4 faiz artmış, marqarin istehsalı isə 8,7 faiz azalmışdır.

Cədvəl 9

Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə		
	Qida məhsullarının istehsalı	İçki istehsalı	Tütün məmulatlarının istehsalı
2020-ci il			
Yanvar	101,1	140,8	101,6
Yanvar-fevral	101,2	2,1 d.	116,3
Yanvar-mart	105,3	2,1 d.	128,0
Yanvar-aprel	108,1	108,3	118,9
Yanvar-may	101,8	102,9	126,1
Yanvar-iyun	98,9	96,2	116,3
Yanvar-iyul	98,5	93,0	127,6
Yanvar-avqust	99,2	91,0	138,7
Yanvar-sentyabr	98,2	90,2	113,5
Yanvar-oktyabr	98,7	91,0	118,3
Yanvar-noyabr	99,0	89,7	127,1
Yanvar-dekabr	97,9	86,3	92,1
2021-ci il			
Yanvar	103,0	104,8	2,9 d.
Yanvar-fevral	102,5	81,4	2,1 d.
Yanvar-mart	106,3	86,9	183,1
Yanvar-aprel	106,9	90,1	198,7
Yanvar-may	107,7	91,4	186,3
Yanvar-iyun	108,1	95,0	180,8

Qrafik 4

Qida məhsullarının istehsalının dinamikası
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



Cədvəl 10

Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

Məhsul növləri	2021-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	01.07.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Qida məhsulları			
Kolbasa məmulatları, ton	12061,5	108,4	15,0
Qaymaq və xama, ton	4521,9	122,6	-
Pendir və kəsmik, ton	26741,5	101,7	102,6
Kərə yağı, ton	12838,5	105,4	81,5
Cem və marmeladlar, ton	44469,9	117,7	2850,8
Duru bitki yağları, ton	28298,2	104,6	898,2
Marqarin, ton	24491,0	91,3	1160,0
İnsanın qidalanması üçün yararlı olan duz, min ton	36,0	102,9	3,0
Qənd və şəkər tozu, min ton	169,6	179,3	14,9
İçki məhsulları			
Araq, min dkl	744,8	61,7	261,2
Brendi (konyak), min dkl	10,0	76,3	18,9
Üzüm şərabı, min dkl	334,2	306,0	1073,6
Pivə, min dkl	2574,3	103,3	233,8

…ardı

Məhsul növləri	2021-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	01.07.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Alkoqolsuz içkilər, min dkl	14656,9	116,4	923,7
Tütün məmulatları			
Fermentləşdirilmiş tütün, ton	663,1	26,7	1217,5
Papiros və siqaretlər, milyon ədəd	6888,5	2,3 d.	1033,9

Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində 250,8 milyon manat dəyərində məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar-iyun ayları ilə müqayisədə dəri və dəridən məmulatların, ayaqqabıların istehsalında 2,2 dəfə, toxuculuq sənayesində 48,1 faiz, geyim istehsalında isə 10,7 faiz artım müşahidə olunmuşdur.

Cədvəl 11

Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində indekslərin dinamikası

	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə		
	Toxuculuq sənayesi	Geyim istehsalı	Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı
2020-ci il			
Yanvar	98,6	170,1	40,3
Yanvar-fevral	125,0	179,6	59,7
Yanvar-mart	110,5	110,0	39,3
Yanvar-aprel	101,2	103,6	45,9
Yanvar-may	101,6	113,0	62,8
Yanvar-iyun	99,5	106,8	63,1
Yanvar-iyul	100,4	115,8	86,8
Yanvar-avqust	104,7	132,0	93,7
Yanvar-sentyabr	105,1	129,2	94,7
Yanvar-oktyabr	106,1	133,7	107,9
Yanvar-noyabr	109,6	141,5	120,0
Yanvar-dekabr	107,4	132,7	104,7

…ardı

	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə		
	Toxuculuq sənayesi	Geyim istehsalı	Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı
2021-ci il			
Yanvar	110,9	89,7	3,9 d.
Yanvar-fevral	126,5	96,0	7,2 d.
Yanvar-mart	127,8	110,8	4,8 d.
Yanvar-aprel	133,3	119,0	4,4 d.
Yanvar-may	143,0	120,5	2,9 d.
Yanvar-iyun	148,1	110,7	2,2 d.

Cədvəl 12

Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

Məhsul növləri	2021-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	01.07.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Toxuculuq məhsulları			
Pambıq lifi, ton	45021,3	132,1	8189,0
Hazır pambıq parçalar, min kv.m	17740,3	124,2	453,5
Pambıq iplik, ton	12213,2	2,3 d.	2559,7
ondan əmtəəlik	11564,7	2,4 d.	2559,7
Pambıq yataq ağları, min ədəd	213,0	8,4 d.	5,2
Geyim istehsalı			
Üst geyim, min ədəd	306,1	3,4 d.	22,3
Alt geyim, min ədəd	381,3	189,7	7,7
Corab məmulatları, min cüt	1561,1	113,5	24,5
Kişi və ya oğlanlar üçün pambıqdan və ya kimyəvi liflərdən hazırlanan istehsalat və peşə komplektləri, min ədəd	136,0	38,1	1,4
Qadın və ya qızlar üçün kostyum və komplektlər, ədəd	2290	184,4	-
Dəri və dəridən məmulatlar, ayaqqabılar			
Dəri, min kv,m	37,2	2,3 d.	140,0
Aşılanmış xəz dərilər, min kv.m	2,1	3,5 d.	0,5
Ayaqqabı, min cüt	643,8	3,1 d.	431,0

Neft məhsullarının istehsalı sahəsində istehsalın ümumi dəyəri 1977,0 milyon manat olmaqla, əvvəlki ilin yanvar-iyun ayları ilə müqayisədə 5,5 faiz artmışdır. Neft məhsullarından sürtkü yağlarının istehsalı 79,6 faiz, neft-kimya sənayesində istifadə üçün benzinin istehsalı 53,0 faiz, neft koksunun istehsalı 18,3 faiz, neft bitumunun istehsalı 10,4 faiz, dizel yanacağının istehsalı 10,0 faiz artmış, ağ neftin istehsalı 4,0 faiz, avtomobil benzininin istehsalı 5,3 faiz, yanacaq mazutunun istehsalı isə 37,8 faiz azalmışdır.

Cədvəl 13

Neft məhsullarının istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar

Məhsul növləri	2021-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	01.07.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Avtomobil benzini, min ton	579,1	94,7	68,4
Neft-kimya sənayesində istifadə üçün benzin, min ton	211,8	153,0	1,3
Ağ neft, min ton	241,4	96,0	36,2
Dizel yanacağı, min ton	1230,8	110,0	101,8
Yanacaq mazutu, min ton	24,4	62,2	11,6
Sürtkü yağları, min ton	24,6	179,6	4,5
Neft bitumu, min ton	150,1	110,4	13,3
Neft koksu, min ton	131,8	118,3	7,5

Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində 797,2 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə məhsul buraxılışı əczaçılıq məhsullarının istehsalında 3,1 dəfə, rezin və plastik kütlə məmulatlarının istehsalında 29,7 faiz artmış, kimya sənayesi məhsullarının istehsalında isə 5,3 faiz azalmışdır.

Əsas kimya məhsullarından lak-boya məmulatlarının istehsalı 93,6 faiz, rezin və plastik kütlə məmulatlarından plastik

borular, borucuqlar və şlanqlar üçün fitinqlərin istehsalı isə 8,1 dəfə artmışdır.

Cədvəl 14

Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə		
	Kimya sənayesi	Əczaçılıq məhsullarının istehsalı	Rezin və plastik kütlə məmulatlarının istehsalı
2020-ci il			
Yanvar	140,5	160,0	103,5
Yanvar-fevral	119,5	104,2	103,6
Yanvar-mart	125,7	136,7	125,0
Yanvar-aprel	124,9	160,7	120,0
Yanvar-may	124,6	3,1 d.	113,6
Yanvar-iyun	120,5	4,6 d.	104,1
Yanvar-iyul	118,8	7,8 d.	119,0
Yanvar-avqust	113,4	9,5 d.	123,3
Yanvar-sentyabr	120,1	8,2 d.	116,4
Yanvar-oktyabr	113,2	8,8 d.	119,1
Yanvar-noyabr	119,5	9,4 d.	121,7
Yanvar-dekabr	120,5	10,7 d.	113,5
2021-ci il			
Yanvar	114,3	10,4 d.	197,0
Yanvar-fevral	106,5	9,6 d.	145,3
Yanvar-mart	87,5	7,3 d.	115,2
Yanvar-aprel	86,6	6,0 d.	124,0
Yanvar-may	90,2	4,4 d.	124,6
Yanvar-iyun	94,7	3,1 d.	129,7

Qrafik 5

Kimya sənayesi məhsullarının istehsalının dinamikası
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



Cədvəl 15

Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

Məhsul növləri	2021-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	01.07.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Kimya sənayesi məhsulları			
Azot, min kub m	10927,1	97,6	40,0
ondan əmtəəlik	182,1	66,7	40,0
Yod, ton	82,2	92,9	8,0
Oksigen, min kub m	4962,3	4,4 d.	3,5
ondan əmtəəlik	4943,7	4,5 d.	3,5
Propilen, min ton	70,1	105,3	0,8
ondan əmtəəlik	65,6	102,7	0,8
Polietilen, min ton	81,7	93,8	12,0
Etilen, min ton	82,8	94,6	-
Metanol (metil spirti), min ton	98,4	40,4	34,7
Lak-boya məmulatları, ton	12362,1	193,6	104,6

…ardı

Məhsul növləri	2021-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	01.07.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Sair üzvi kompozisiya həllediciləri və durulaşdırıcıları, ton	20736,8	135,7	8,8
Rezin və plastik kütlə məmulatlarının istehsalı			
Bərk polietilen borular, borucuqlar, şlanqlar, qollar, ton	3854,8	77,5	2361,7
Bərk polipropilen borular, borucuqlar, şlanqlar, qollar, ton	2610,5	136,5	74,6
Məsaməli polistirol lövhələr və zolaqlar, ton	1166,0	76,0	70,1
Butullar, butulkalar və tutumu 2 litrdən çox olmayan oxşar plastik məmulatlar, min ədəd	27799,0	4,2 d.	3970,2
Plastik borular, borucuqlar və şlanqlar üçün fitinqlər, ton	3683,5	8,1 d.	282,6
Əczaçılıq məhsullarının istehsalı			
Tərkibində digər antibiotiklər olan, pərakəndə satış üçün qablaşdırılan dərmanlar, min manat	0,9	7,2	14,9
Tərkibində qarışıq və ya xalis məhsullar olan, digər qruplara daxil edilməyən, pərakəndə satış üçün qablaşdırılan sair dərmanlar, min manat	637,3	157,8	388,7
Tibbi maska, milyon ədəd	13,9	4,0 d.	2,5

Tikinti materiallarının istehsalı sahəsində istehsalın ümumi dəyəri 374,4 milyon manat olmaqla, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 40,2 faiz artmışdır. Sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpiclərinin istehsalı 76,2 faiz, emal edilmiş mərmər, travertin, alebastr və onlardan məmulatların istehsalı 83,1 faiz, tikinti gipsinin istehsalı 33,7 faiz, hörmə üçün hazır beton qarışığının istehsalı 41,6 faiz, tikinti əhənginin istehsalı 29,6 faiz, sementin istehsalı 8,4 faiz, tikinti kərpicinin istehsalı 16,8 faiz artmış, asfaltın istehsalı isə 43,3 faiz azalmışdır.

Qrafik 6

Tikinti materiallarının istehsalının dinamikası
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



Cədvəl 16

Tikinti materiallarının istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar

Məhsul növləri	2021-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	01.07.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Sement, min ton	1702,0	108,4	125,0
Tikinti gipsi, min ton	12,3	133,7	3,4
ondan əmtəəlik	12,3	136,7	3,4
Tikinti əhəngi, min ton	17,5	129,6	7,3
Sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpicləri, min ton	37,0	176,2	20,5
Betondan yığma tikinti konstruksiyaları, min kub metr	36,7	212,1	4,8
Asfalt, min ton	40,3	56,7	-
Tikinti kərpici, min kub metr	276,1	116,8	11,5
Hörmə üçün hazır beton qarışığı, min ton	1230,1	141,6	-
Emal edilmiş mərmər, travertin, alebastr və onlardan məmulatlar, ton	18601,2	183,1	-

Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində yanvar-iyun aylarında 423,1 milyon manatlıq məhsul istehsal olunmuş, metallurgiya sənayesi məhsullarının istehsalında 9,4 faiz, hazır metal məmulatlarının istehsalı sahəsində isə 3,4 faiz artım müşahidə olunmuşdur. Yanvar-iyun aylarında sahə üzrə 11324,1 ton qara metallardan sair konstruksiyalar istehsal edilmişdir.

Cədvəl 17

Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində indekslərin dinamikası

	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	
	Metallurgiya sənayesi	Hazır metal məmulatlarının istehsalı
2020-ci il		
Yanvar	138,8	163,9
Yanvar-fevral	139,6	156,5
Yanvar-mart	2,1 d.	102,7
Yanvar-aprel	2,3 d.	104,4
Yanvar-may	2,2 d.	107,4
Yanvar-iyun	2,2 d.	86,9
Yanvar-iyul	2,1 d.	99,5
Yanvar-avqust	2,3 d.	96,2
Yanvar-sentyabr	174,9	97,9
Yanvar-oktyabr	178,6	101,2
Yanvar-noyabr	186,6	104,2
Yanvar-dekabr	111,9	107,3
2021-ci il		
Yanvar	108,1	75,1
Yanvar-fevral	93,9	79,8
Yanvar-mart	100,6	88,5
Yanvar-aprel	100,0	90,7
Yanvar-may	102,4	95,3
Yanvar-iyun	109,4	103,4

Cədvəl 18

Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

Məhsul növləri	2021-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	01.07.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Metallurgiya sənayesi məhsulları			
Polad tökmə, min ton	130,5	111,0	2,2
Armatur, min ton	126,5	111,5	3,1
Polad borular, min ton	16,3	102,5	0,1
Emal edilməmiş alüminium ərintiləri, ilkin şəkildə, min ton	15,0	85,2	12,5
Alüminium çubuqlar, millər və profillər, ton	1206,5	82,9	96,1
Hazır metal məmulatlarının istehsalı			
Qara metallardan yığma tikinti konstruksiyaları, min manat	10935,5	96,0	-
Qara metallardan sair konstruksiyalar, ton	11324,1	70,3	3610,8
Misdən elektrik izolyasiyası olmayan çoxdamarlı məftil, tros və kabellər, ton	1960,0	70,6	-

Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində 101,8 milyon manatlıq məhsul istehsal olunmuş, əvvəlki ilin yanvar-iyun ayları ilə müqayisədə kompüter, elektron və optik məhsulların istehsalı 2,5 dəfə, elektrik avadanlıqlarının istehsalı isə 60,6 faiz artmışdır. Dövr ərzində əvvəlki ilin yanvar-iyun ayları ilə müqayisədə stolüstü kompüterlərin istehsalı 26,3 dəfə, mayelərin məsrəfi və ya səviyyəsinin ölçülməsi, yoxlanması üçün cihazların istehsalı 2,5 dəfə, 1000 V-dək gərginlik üçün hesablanmış elektrik cərəyanı naqillərinin istehsalı 89,2 faiz, qəbuledici qurğuları olmayan radio və televiziya verilişləri aparatlarının istehsalı 49,0 faiz, məişət soyuducularının istehsalı isə 46,4 faiz artmışdır.

Cədvəl 19

Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsalın dinamikası

	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	
	Kompüter, elektron və optik məhsulların istehsalı	Elektrik avadanlıqlarının istehsalı
2020-ci il		
Yanvar	2,2 d.	66,7
Yanvar-fevral	5,7 d.	127,1
Yanvar-mart	3,9 d.	118,3
Yanvar-aprel	2,6 d.	120,6
Yanvar-may	194,6	126,5
Yanvar-iyun	166,6	103,8
Yanvar-iyul	142,8	105,1
Yanvar-avqust	136,8	103,4
Yanvar-sentyabr	139,7	90,4
Yanvar-oktyabr	150,1	97,6
Yanvar-noyabr	151,2	117,2
Yanvar-dekabr	134,5	9,6 d.
2021-ci il		
Yanvar	46,6	196,3
Yanvar-fevral	3,0 d.	106,2
Yanvar-mart	2,5 d.	114,1
Yanvar-aprel	2,8 d.	165,2
Yanvar-may	2,5 d.	181,5
Yanvar-iyun	2,5 d.	160,6

Cədvəl 20

Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

Məhsul növləri	2021-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	01.07.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Mayelərin məsrəfi və ya səviyyəsinin ölçülməsi, yoxlanması üçün cihazlar, ədəd	105695	2,5 d.	-
Avtomatik tənzimləmə və idarəetmə üçün cihaz və aparatlar, ədəd	1683	6,9	-
Qəbuledici qurğuları olmayan radio və televiziya verilişləri aparatları, ədəd	15500	149,0	517
1000 V-dək gərginlik üçün hesablanmış elektrik cərəyanı naqilləri, ton	3776,4	189,2	718,7
1 kV-dan çox gərginlik üçün elektrik cərəyanı naqilləri, ton	397,8	57,8	-
Məişət soyuducuları, ədəd	483	146,4	228

Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində 134,2 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə maşın və avadanlıqların istehsalı 48,3 faiz artmış, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 47,1 faiz, sair nəqliyyat vasitələrinin istehsalı isə 69,1 faiz azalmışdır. Yanvar-iyun aylarında 795 ədəd və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 78 ədəd az minik avtomobili istehsal olunmuşdur. Dövr ərzində əvvəlki ilin yanvar-iyun ayları ilə müqayisədə traktorların istehsalı 2,8 dəfə, fəvvarə armaturunun istehsalı isə 61,4 faiz artmışdır.

Cədvəl 21

Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində istehsalın dinamikası

	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə		
	Maşın və avadanlıqların istehsalı	Avtomobil, qoşqu və yarımqoşquların istehsalı	Sair nəqliyyat vasitələrinin istehsalı
2020-ci il			
Yanvar	56,0	172,8	189,8
Yanvar-fevral	80,9	7,0 d.	2,5 d.
Yanvar-mart	84,0	7,3 d.	166,7
Yanvar-aprel	76,2	4,7 d.	135,1
Yanvar-may	91,8	2,3 d.	137,6
Yanvar-iyun	116,2	196,1	157,2
Yanvar-iyul	164,9	192,5	157,7
Yanvar-avqust	150,4	196,4	163,0
Yanvar-sentyabr	128,9	172,2	159,4
Yanvar-oktyabr	141,4	164,1	150,3
Yanvar-noyabr	108,0	141,2	147,5
Yanvar-dekabr	94,9	135,7	147,0
2021-ci il			
Yanvar	123,5	98,1	33,3
Yanvar-fevral	2,0 d.	25,7	4,3
Yanvar-mart	2,4 d.	36,7	2,3
Yanvar-aprel	2,7 d.	43,9	0,9
Yanvar-may	198,5	52,3	29,1
Yanvar-iyun	148,3	52,9	30,9

Cədvəl 22

Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobillərin istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

Məhsul növləri	2021-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	01.07.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Fəvvarə armaturu, ton	50,2	161,4	-
Ştanqlı quyu nasosları, ədəd	2126	74,9	740
Mancanaq dəzgahları, ədəd	140	98,6	45
Traktorlar, ədəd	296	2,8 d.	65
Minik avtomobilləri, ədəd	795	91,1	144

Elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorları

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda dövr ərzində 1203,2 milyon manat dəyərində məhsul istehsal olunmuş və xidmətlər göstərilmiş, əvvəlki ilin yanvar-iyun ayları ilə müqayisədə 1,2 faizlik artım müşahidə olunmuşdur.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 198,4 milyon manat təşkil etmişdir.

Cədvəl 23

Elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında məhsul buraxılışı

Fəaliyyət növlərinin adı	2021-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir, milyon manat	Əvvəlki ilin müvafiq dövrünə nisbətən (sabit qiymətlərlə), faizlə
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	1203,2	101,2
Su təchizatı, tullantıların təmizlənməsi və emalı	198,4	111,2

Cədvəl 24

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmiş əsas məhsullar

Məhsul növləri	2021-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir	Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə	01.07.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı			
Elektrik enerjisi, milyon kVt-saat	12373,1	102,7	-
ondan əmtəəlik	11986,1	102,9	-
su elektrik stansiyalarının istehsalı	755,5	113,5	-
istilik elektrik stansiyalarının istehsalı	11159,1	102,3	-
küləklə işləyən elektrik stansiyaların istehsalı	45,9	86,4	-
günəş enerjisi ilə işləyən elektrik stansiyaların istehsalı	25,6	114,8	-
Su təchizatı, tullantıların təmizlənməsi və emalı			
Suyun təmizlənməsi və bölüşdürülməsi, milyon kub metr	260,3	97,6	-

Tikinti

Əsas kapitala yönəldilmiş vəsaitlər

2021-ci ilin yanvar-iyun aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 5919,4 milyon manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 7,6 faiz az vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 2,8 faiz, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 11,3 faiz azalmışdır. Ümumi sərmayənin 4068,9 milyon manatı və ya 68,7 faizi məhsul istehsalı sahələrinin, 1381,5 milyon manatı (23,4 faizi) xidmət sahələrinin, 469,0 milyon manatı (7,9 faizi) isə yaşayış evlərinin tikintisinin payına düşmüşdür.

Ümumi sərmayənin 34,6 faizi dövlət, 65,4 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Sərmayə qoyuluşunun 66,5 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin dəyəri ümumi sərmayənin 61,0 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitdə müəssisə və təşkilatların vəsaitləri 3575,0 milyon manat, büdcə vəsaitləri 1130,3 milyon manat, bank kreditləri 354,6 milyon manat, əhalinin şəxsi vəsaitləri 426,5 milyon manat, sair vəsaitlər 433,0 milyon manat təşkil etmişdir.

Cədvəl 25

Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər

	2021-ci ilin yanvar-iyun aylarında, milyon manat	Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə	Ümumi yekunda xüsusi çəkisi, faizlə
Cəmi	**5919,4**	**92,4**	**100,0**
o cümlədən: Müəssisə və təşkilatların vəsaitləri	3575,0	89,4	60,4
Bank kreditləri	354,6	92,0	6,0
Büdcə vəsaitləri	1130,3	84,0	19,1
Büdcədənkənar dövlət fondlarının vəsaitləri	-	-	-
Əhalinin şəxsi vəsaiti	426,5	106,6	7,2
Sair vəsaitlər	433,0	3,3 d.	7,3

Qrafik 7

Əsas kapitala yönəldilmiş vəsaitlərin maliyyə mənbələri üzrə strukturu, faizlə



2021-ci ilin yanvar-iyun aylarında əsas kapitala yönəldilmiş ümumi vəsaitin 54,4 faizi sənaye, 20,0 faizi tikinti, 13,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 2,7 faizi peşə, elmi və texniki fəaliyyət, 2,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 1,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 1,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,2 faizi təhsil, 0,8 faizi informasiya və rabitə, 0,4 faiz əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 0,3 faiz inzibati və yardımçı xidmətlərin göstərilməsi, 0,2 faizi maliyyə və sığorta fəaliyyəti, hər birində 0,1 faiz olmaqla istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, digər sahələrdə xidmətlərin göstərilməsi sahələrinə sərf edilmişdir.

Cədvəl 26

İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin dəyəri

